# MAŞALLAH BABAKİŞİ OĞLU ABDULLAYEV



Maşallah Babakişi oğlu Abdullayev 1950-ci il may ayının 27-də Goranboy rayonunun Kəpənəkçi kəndində anadan olmuş, səkkizinci sinfədək 1 saylı Goranboy şəhər orta məktəbində təhsil almışdır. Sonra təhsilini fəhləgənclər məktəbində davam etdirmişdir. 1969-cu ildə hərbi xidmətə çağırılır. O, 1971-ci ildə Kerç şəhərində ordudan tərxis olunaraq Bakıya gəlir və Neft Daşlarında işə düzəlir. Maşallah Abdullayev 1973-cü ildə Bakı Bədən Tərbiyəsi Texnikumuna qəbul olunur və buranı müvəffəqiyyətlə bitirib, 1975-ci ildə təyinatla doğma rayonlarına, vaxtilə təhsil aldığı 1 saylı orta məktəbə müəllim göndərilir. Qarabağ müharibəsi başlayanda ilk könüllü dəstələrin yaradılmasında və batalyon kimi formalaşmasında M.Abdullayevin xidmətləri əvəzsizdir. Ağcakənd kəndinin erməni işğalçılarından təmizlənməsində M.Abdullayevin də rolu böyük olmuşdur. Daha sonra o, Respublika Ali Sovetinə (Milli Məclisə) deputat seçildi. Deputatlığı dövründə öz missiyasını bacarıqla yerinə yetirdi. 1992-ci ildə Maşallah Abdullayev Respublika Müdafiə Nazirliyi nəzdində briqada komandirinin müavini vəzifəsinə təyin olundu. Həmin briqada Tərtər, Goranboy və Yevlax ərazilərinə nəzarət edirdi. Goranboy və Ağdərənin erməni işğalçılarından təmizlənməsində bu briqadanın əvəzsiz rolu olmuşdur. Mayor rütbəsinəcən yüksələn Maşallah Abdullayev 1992-ci ilin avqustundan 1993-cü ilin iyul ayınadək Goranboy Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmişdir. Hazırda öz şəxsi təsərrüfatı ilə məşğuldur. İgidliyə görə general M.Əsədov adına mükafata layiq görülmüşdür. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Şurası Goranboy Rayon Şurasının sədridir. Ailəlidir. Bir övlad atasıdır. Azərbaycan Respublikası prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı fərmanı ilə Abdullayev Maşallah Babakişi oğluna "Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir.